# "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №11, maddə 1980) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və ikinci abzasda "və külli miqdarının" sözləri ", külli və xüsusilə külli miqdarlarının" sözləri ilə əvəz edilsin.

2. Həmin Qanunla təsdiq edilmiş "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı" aşağıdakı redaksiyada verilsin:

**"Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli, külli və xüsusilə külli miqdarlarının**

**SİYAHISI**

| Sıra №-si | Prekursorun adı | Xeyli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri | Külli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri | Xüsusilə külli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri |
|---|---|---|---|---|
| 1. | 1-Fenil-2-propanon | 10 qram | 2000 qram | 400000 qram |
| 2. | 3,4-metilendioksifenil-2-propanon | 10 qram | 2000 qram | 400000 qram |
| 3. | Antranil turşusu | 2500 qram | 25000 qram | 250000 qram |
| 4. | Aseton | 50 litr | 200 litr | 800 litr |
| 5. | Efedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır) | 25 qram | 5000 qram | 1000000 qram |
| 6. | Erqometrin (erqonovin) | 0,3 qram | 3 qram | 30 qram |
| 7. | Erqotamin | 0,3 qram | 3 qram | 30 qram |
| 8. | Etil efiri | 20 litr | 200 litr | 2000 litr |
| 9. | Fenilsirkə turşusu | 1000 qram | 10000 qram | 100000 qram |
| 10. | Xlorid turşusu | 100 litr | 1000 litr | 10000 litr |
| 11. | İzosafrol | 500 qram | 5000 qram | 50000 qram |
| 12. | Kalium permanqanat | 500 qram | 3000 qram | 18000 qram |
| 13. | Lizergin turşusu | 0,1 qram | 1 qram | 10 qram |
| 14. | Metiletilketon (MEK) | 20 litr | 200 litr | 2000 litr |
| 15. | N-asetilantranil turşusu | 300 qram | 3000 qram | 30000 qram |
| 16. | Norefedrin | 25 qram | 5000 qram | 1000000 qram |
| 17. | Piperidin | 20 qram | 200 qram | 2000 qram |
| 18. | Piperonal | 20 qram | 200 qram | 2000 qram |
| 19. | Psevdoefedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır) | 25 qram | 5000 qram | 1000000 qram |
| 20. | Safrol | 500 qram | 5000 qram | 50000 qram |
| 21. | Sirkə turşusunun anhidridi | 100 qram | 5000 qram | 250000 qram |
| 22. | Sulfat turşusu | 100 litr | 1000 litr | 10000 litr |
| 23. | Toluol | 100 litr | 1000 litr | 10000 litr |

**Qeyd:**
Bu Siyahıda göstərilən miqdarlar həmin prekursorların duzlarına (belə duzların mövcudluğu mümkün olduğu halda) da aiddir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2023-cü il*